# Tarixin yüz anı...



Hüseynbala MİRƏLƏMOV

Böyük şəxsiyyətlər haqqında yazmağın məsuliyyəti yaradıcı çətinliyindən daha böyükdür. Hələ əgər o şəxsiyyət xalqın milli dövlətçilik tarixinin son yarım əsrdəki çox əhəmiyyətli bir dövrünün müəllifidirsə, ilk cümləni yazmadan əvvəl istər-istəməz düşünməli olursan: görəsən, düşüncələri hansı yöndən qələmə almağa başlasan yaxşı olar?! Onun həyat və fəaliyyətini, irsini lazımi qədər bilirikmi?!

Heydər Əliyev şəxsiyyəti bədii-publisistik yaradıcılığımın şah mövzusudur. Həyatımın əsas hissəsi Heydər Əliyevin gözlərim önündə qurub yaratdığı Azərbaycanda keçib. Ulu Öndərimizin müasirlərindən olmuşam. Xoşbəxtəm ki, bu gün də Onun ideyaları işığında inkişaf edən, tarixinin yeni dönəminə qədəm qoyan ölkənin sakiniyəm.

Təvazökarlıqdan uzaq olsa da, özümü bu yarıməsrlik dövrün əli qələmli canlı salnaməçilərindən biri hesab edirəm. Ona görə də Heydər Əliyev mövzusunda özümü, əslində çox rahat hiss etməliyəm. Bununla belə, yenə də hər dəfə tərəddüdlərim olur. Çünki haqqında yazdığım şəxsiyyətə aid nə varsa, Azərbaycan xalqı və dövləti üçün tarixdir. Ona görə ki, Heydər Əliyevin adı olan hər yerdə Azərbaycan var, "Heydər Əliyev" yazılır, Azərbaycan oxunur! Onun həyat və şəxsiyyətinin bütün məqamları milli dövlətçilik tariximizin ayrılmaz parçasıdır. Dolayısı ilə Azərbaycan tarixinin çox mühüm bir hissəsi məhz Heydər Əliyev şəxsiyyəti ətrafında mərkəzləşir. Özü də mən bura təkcə Ulu Öndərin ötən əsrin 60-cı illərinin sonlarında ölkəyə rəhbərliyindən, Azərbaycan üçün gördüyü işlərdən başlanan yarıməsrlik tarixi nəzərdə tutmuram. Milli dövlətçilik tariximizin daha qədim qatları da bu şəxsiyyətdə qovuşur. Zamanın müxtəlif çağlarında Azərbaycan üçün çalışıb-vuruşan, bu ölkənin keçmişində, bu günündə izi olan digər böyük şəxsiyyətlərimizin mənəvi idealları, dövlətçilik amalları da Heydər Əliyev irsində təcəlla tapır.

Yeri gəlmişkən, çoxdan bəri düşündüyüm bir maraqlı reallığı da dəyərli oxucularımla bölüşmək istərdim. Heydər Əliyevin xalqın təkidli tələbi ilə müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə qayıdışından danışarkən bir çox tarixçilər, publisistlər 1993-cü ilin iyununda baş verən hadisələri, ölkənin vətəndaş müharibəsi həddinə, çıxılmaz vəziyyətə gəlməsini xüsusi qeyd edirlər. Səbəb-nəticə əlaqəsi daha çox bu hadisələrdə axtarılmış kimi görünür. Amma bununla razılaşmaq çətindir. Çünki Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı hələ Azərbaycanın dövlət müstəqilliyinin bərpasından xeyli əvvəl, 90-cı illərin ilk aylarından real və arzuedilən idi.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə önə çıxan qaragüruh qüvvələrin dövlət idarəçiliyi işini yarıtmayacaqları ilk baxışdan görünəndə və başlı-başına, taleyin ümidinə qalmış ölkəyə kiminsə yiyə çıxması zərurəti çoxları üçün aktuallaşanda qurmaq istədiyimiz Azərbaycanı məhz Heydər Əliyevin qura biləcəyi bütün aydınlığı ilə ortaya çıxmışdı.

Hakimiyyət uğrunda mübarizənin mahiyyəti, iç üzü ortaya çıxdıqca, ən mühümü isə Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə qurub-yaratdıqları xalqın gözü önündə yağı malı kimi talan edildikcə nəzərlər Böyük Dövlət Qurucusuna yönəlirdi.

...Bu epizodu heç vaxt unutmaram. Olardı 1990-cı ilin payız ayları, Bakıda taksiyə minmişdim. Yolumuz Neftçilər prospekti tərəfdən, Dənizkənarı Bulvarın yanından keçirdi. Sürücü orta yaşlarında bir kişi idi, onda bulvarın çox bərbad, hüznlü, xüsusilə payız vaxtı adama qüssə gətirən bir görkəmi vardı, onillər əvvəl burada yaradılmış abadlıq, infrastruktur baxımsızlıqdan dağılıb gedirdi. Onda camaatın sözü-söhbəti siyasət idi, biz də yola nərdivan salmaq üçün sürücü ilə ordan-burdan söhbət edirdik. Birdən qayıtdı ki, deyirlər, Heydər Əliyev Moskvadan Bakıya qayıdandan sonra şəhəri gəzməyə çıxıb. Bulvara da gəlib, buraları belə halda görəndə kişi kövrəlib ki, mənim qurub-yaratdıqlarımı niyə belə dağıtmısınız?!

Orta yaşlı taksi sürücüsünün o zaman danışdığı bu epizodun nə dərəcədə real fakt, yaxud xalq yaradıcılığı nümunəsi olduğunu, əfsus ki, dəqiqləşdirmək imkanım yoxdur. Amma o dövrdə qədirbilən sadə insanlarımızın Heydər Əliyevə münasibətinin, onun Azərbaycan üçün qurub-yaratdıqlarına qiymətinin və ölkənin gələcəyi üçün bu böyük dövlət adamının üzərinə qoyduğu ağır məsuliyyətin ifadəsi kimi maraq doğurur.

Böyük liderlərin bir özəlliyi də bundan ibarətdir ki, onlar öz cəmiyyətlərini formalaşdırırlar, toplumun ümumi baxışlarında, ictimai təfəkküründə Liderdən əxz edilmiş bir çox keyfiyyətlər, düşüncə tərzi, yanaşmalar nəzərə çarpır. Azərbaycanda da Heydər Əliyevdən görüb-götürən, onun Lider kimi böyüklüyünü, əzəmətini birmənalı şəkildə qəbul edən bütöv bir nəsil var. Heydər Əliyev Azərbaycan insanı üçün bir dəyərdir, qürurdur. O, XX əsrdə yetişən ən böyük dövlət adamıdır. Vaxt olub ki, böyük bir coğrafiyada bizi Vətənimiz, xalqımız, milli özəlliklərimizlə yanaşı, həm də məhz onun adı ilə tanıyıblar. Ona görə də Heydər Əliyev öz böyüklüyü, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri, təkcə ölkə hüdudlarında deyil, ümumən dünya miqyasında insanların hər zaman yaddaşındadır.

* * *

"Öz tələbə yoldaşlarının arasında Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü. Sonra Heydər bu böyük yazıçının portretini də çəkmişdi..."

* * *

"- Yadımdadır, - deyə Heydər Əliyev xatırlayırdı, - şair Rəsul Rza, Süleyman Rüstəm, bəstəkar Qara Qarayev, Fikrət Əmirov və başqa bir neçə nüfuzlu mədəniyyət xadimi mənə məktubla müraciət etdilər. Onlar Nizami məqbərəsinin acınacaqlı hala düşməsindən narahatçılıqlarını bildirirdilər. Ziyalılar fikirləşirdilər ki, əgər burada belə böyük bir müəssisə tikilibsə, yəqin ki, onu harasa köçürtmək mümkün olmaz, elə isə Nizaminin məqbərəsi bir başqa yerə köçürülsün, yoxsa tamamilə bərbad vəziyyətə düşəcək. Dəqiq yadımdadır, qarşıma iki çıxış yolu qoyulmuşdu: ya kombinatı dayandırmaq, ya da məqbərəni başqa yerə köçürtmək. Bu cür kombinatları hər il tikmək mümkündür, amma Nizami bizim üçün elə qiymətli xəzinədir ki, onu heç nə ilə müqayisə etmək olmaz. Buna görə də məqbərənin yerinin dəyişdirilməsi bizimçün mənəvi cəhətdən də çox ağır idi və biz heç vaxt bu addımı ata bilməzdik.

Yerində bu məsələni həll etmək mümkün olmadı. Mərkəzi Komitənin birinci katibi kömək üçün Moskvaya müraciət etdi. Onun göstərişiylə respublikanın görkəmli alimlərindən və mütəxəssislərindən ibarət nüfuzlu bir komissiya yaradılır. Beləliklə, Azərbaycan ədəbiyyatının korifeyini yaxınlığındakı yeni sənaye nəhəngi ilə "barışdırmaq" mümkün oldu..."

* * *

"...Moskvanın ədəbi dairələrində Heydər Əliyevin hələ Bakıda işlədiyi dövrlərdə belə bir hadisə barədə söhbət yayılmışdı ki, guya o, paytaxta gəlib Yazıçılar İttifaqında Puşkinin şərəfinə yazıçının "Yevgeni Onegin" poemasını əzbərdən oxumuşdu. Ona qulaq asan qonaqlar heyrətə gəlmişdilər, Puşkini belə gözəl bilməyi ilə Heydər Əliyev onları valeh etmişdi (Qeyd edək ki, illər ötəndən sonra Azərbaycan Prezidenti olan Heydər Əliyevin təşəbbüsüylə Bakıda böyük rus şairi Puşkinin abidəsi ucaldılmışdır). Bir neçə gün sonra Moskvanın bütün ədəbi dairələri xəbər tutdular ki, Heydər Əliyev Puşkini, Lermontovu, o cümlədən də böyük Azərbaycan şairləri Nizamini, Füzulini, Cavidi əzbərdən bilir..."

* * *

"Topçubaşov əsl dövlətin yaradılmasında, ilk növbədə daxili sabitliyin olmasını vacib amil kimi qeyd edirdi. Heydər Əliyev öz fəaliyyəti zamanı məhz bu ideyanın reallaşmasına can atırdı. Heydər Əliyev həmin nəzəriyyənin təşəbbüskarı olaraq bütün xalqı, cəmiyyəti bir yerə toplaya bildi. Bu, azərbaycançılıq idi. Dünya Azərbaycanlılarının I Qurultayındakı hesabatı zamanı Əliyev dedi: - Biz azərbaycanlıyıq. Azərbaycan hamımızın vətənidir. Bu torpaq bizi bir millət, bir xalq, bir şəxsiyyət kimi yetişdirib. Ona görə hər birimizin qəlbində azərbaycanlı ruhu var. Məhz bu azərbaycançılıq ruhu, ideyası bizi bir-birimizlə birləşdirən, daha sıx möhkəmlədən amilə çevrilib. Hər bir dövlətdə milli ideologiya mövcuddur. Azərbaycan Müstəqil respublikasının milli ideologiyası - azərbaycançılıq ideologiyasıdır".

**(Hüseynbala Mirələmov, Viktor Andriyanov "Heydər Əliyev", "Molodaya qvardiya" JZL seriyası, Moskva, 2006)**

* * *

"...Jurnalistlərdən birinin "Sizin üçün ən sevimli insan kimdir?" sualına Heydər Əliyev qısaca cavab vermişdi: "Zərifə xanım"

* * *

"Hər dəfə Heydər Əliyevin - müstəqil Azərbaycanın şanlı simvolunun həyat və fəaliyyətinə həsr olunan filmə baxdıqda ürəyimdə incə hisslər baş qaldırır. Onun öz həyat yoldaşına bəslədiyi müqəddəs məhəbbət ürəkləri riqqətə gətirir. Mən Zərifə Əliyeva ilə vidalaşma səhnəsini - Heydər Əliyevin öz əbədi məhəbbəti ilə ayrılığına acı göz yaşı ilə ağladığı səhnəni nəzərdə tuturam... Zərifə xanım gül dənizinin içində, sanki həyat yoldaşının, öz əbədi məhəbbətinin göz yaşlarını görməmək üçün gözlərini açmaq istəmir..."

**(Hüseynbala Mirələmov "Heydərnamə" epopeyası, "Təhsil" nəşriyyatı, 2011)**

* * *

"...İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bu qoca dünyanın unikal və qədim sivilizasiya ərazilərindən olan Azərbaycanda bir ad daim yaşayacaq, hörmətlə, ehtiramla xatırlanacaq. Bu, Heydər Əliyevin adıdır. Bu adın qarşısında saysız-hesabsız titullar, millət, xalq, Vətən qarşısında misilsiz və müstəsna xidmətlər dayanır - Azərbaycanın xilaskarı, müstəqil dövlətçiliyin memarı və qurucusu, ümummilli lider, fenomen şəxsiyyət, Azərbaycan və azərbaycanlıların şərəf simvolu... "

**(Hüseynbala Mirələmov "Tarixin dahi azərbaycanlısı" sərlövhəli müsahibədən, "Azərbaycan" qəzeti, 9 may 2018)**

* * *

"Vətən adlı duyğularımızın düz ortasından müqəddəs bir yol keçir. Bu, Heydər Əliyev yoludur. Böyük Azərbaycanın birliyi və bütövlüyü, parlaq gələcəyi həmin yoldan keçir..."

**(Hüseynbala Mirələmov "Millətin atası", "Azərbaycan" nəşriyyatı, 2004)**

* * *

"Heydər Əliyev Azərbaycanın mənəvi dünyasında doğulmuş, bu aləmi öz işığı ilə nura boyamış XX əsrin ikinci yarısında Azərbaycan xalqının tarixi taleyində çox böyük və əzəmi dərəcədə əhəmiyyətli rol oynamışdır..."

* * *

"...Dünyada mənə elə insan göstərin ki, ömrü boyu Heydər Əliyev qədər tale sınaqlarına məruz qalsın və sonra onu sınağa çəkən zamanın özünü məğlub etsin..."

**(Hüseynbala Mirələmov "İşığın izi ilə", "Azərbaycan" nəşriyyatı" 2004)**

* * *

"Heydər Əliyev rəhbərliyinin qeyri-adiliyi ondadır ki, dağılmaq, parçalanmaq həddində olan Azərbaycanı, çökmək ərəfəsində olan dövlətçiliyimizi qoruyub saxladı. O, ölkəni təhdid edən vətəndaş müharibəsinin qarşısını aldı. Bir-birinə etimadını itirmiş insanların səmimi ittifaqına nail oldu, vətəndaş həmrəyliyi yaratdı, cəmiyyətdəki xofu, qorxunu aradan qaldırdı, dövləti vətəndaşların hüquq müdafiəçisinə çevirdi. Bax, mənim, sənin, minlərin, milyonların bəxtinə düşən Heydər Əliyev rəhbərliyinin möcüzəsi bundadır".

* * *

"...Tarix heç kimin xidmətini unutmadığı kimi Heydər Əliyevin də Azərbaycan dövlətçiliyi uğrunda əvəzsiz mübarizəsini unutmayacaq. Bu gün müstəqil Azərbaycan dövlətinin mövcudluğuna görə xalq Heydər Əliyevə minnətdardır. Yaddaşı zəif olanlara isə tarixi xatırlatmaq həmişə lazımdır..."

**(Hüseynbala Mirələmov "Amalın işığında", "Azərbaycan" nəşriyyatı, 2002)**